Azərbaycanın uzunmüddətli etibarlı tərəfdaşı və iri neft-qaz layihələrinin əməliyyatçısı olan BP şirkəti ölkənin həyatının ən mühüm sahələrinə – təhsilə, yerli icmalarda imkanların yaradılmasına, kiçik və orta biznesin inkişafına, ətraf mühitin qorunmasına, xalqın zəngin mədəni irsinin və tarixinin tədqiqi və təbliğinə, milli idmanın inkişafına öz töhfəsini verməklə Azərbaycanın gələcəyinin möhkəm təməllər üzərində qurulmasında iştirak edir.

Bu kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri BP-nin ölkədə təhsilin inkişafına verdiyi dəstəyin bir hissəsidir. Kitab bu sahədə ixtisaslaşan təhsil müəssisələrinə və insanlara BP-nin hədiyyəsidir.

# Economic Policy

## Theory and Practice

**SECOND EDITION**

Agnès Bénassy-Quéré, Benoît Cœuré,
Pierre Jacquet, and Jean Pisani-Ferry

OXFORD
UNIVERSITY PRESS

OXFORD
UNIVERSITY PRESS

Oxford University Press is a department of the University of Oxford. It furthers the University's objective of excellence in research, scholarship, and education by publishing worldwide. Oxford is a registered trade mark of Oxford University Press in the UK and certain other countries.

Published in the United States of America by Oxford University Press
198 Madison Avenue, New York, NY 10016, United States of America.

© Oxford University Press 2019

First Edition published in 2010
Second Edition published in 2019

All rights reserved. No part of this publication may be reproduced, stored in a retrieval system, or transmitted, in any form or by any means, without the prior permission in writing of Oxford University Press, or as expressly permitted by law, by license, or under terms agreed with the appropriate reproduction rights organization. Inquiries concerning reproduction outside the scope of the above should be sent to the Rights Department, Oxford University Press, at the address above.

You must not circulate this work in any other form
and you must impose this same condition on any acquirer.

CIP data is on file at the Library of Congress
ISBN 978–0–19–091210–9

9 8 7 6 5 4 3 2 1

Printed by Sheridan Books, Inc., United States of America

# İqtisadi siyasət

## Nəzəriyyə və praktika

Aqnes **Benassi-Küer** • Benua **Köre** •
Pyer **Jake** • Jan **Pizani-Ferri**

Ön sözün müəllifi **Olivye Blanşar**

TEAS PRESS

Aqnes Benassi-Küer, Benua Köre, Pyer Jake, Jan Pizani-Ferri

**İqtisadi siyasət. Nəzəriyyə və praktika**

(ingilis dilindən tərcümə)

**Layihə rəhbəri:** Ülkər Hüseynova

**Təhsil üzrə məsləhətçi:** Elmina Kazımzadə

**Tərcüməçilər:** Firuzə Məmmədova, Elməddin Həsənov

**İxtisas redaktoru:** Elçin Güləliyev

**Nəşriyyat redaktoru:** Famil Cəfərli

**Texniki redaktor:** Vüsalə Babayeva

**Buraxılışa məsul:** Rəşad İsmixanov

**Korrektor:** Flora Əliyeva

**Dizayner:** Mahir Allahverdiyev

Bakı, TEAS Press Nəşriyyat evi, 2024, 608 səh.

ISBN 978 9952 563 45 0

Bu kitab ilk dəfə 2010-cu ildə "Oxford University Press" nəşriyyatı tərəfindən "Economic Policy. Theory and Practice" adı ilə nəşr olunub. Əsər "Oxford University Press" nəşriyyatının orijinalı əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.
Kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

www.teaspress.az
Bütün hüquqlar qorunur.

© Oxford University Press, 2010, 2019
© TEAS Press Nəşriyyat evi, 2024

# MÜNDƏRİCAT


Ön söz ........ 7

Giriş ........ 9

**Fəsil 1.** Konsepsiyalar ........ 15

**Fəsil 2.** Anlayışlar ........ 65

**Fəsil 3.** Qarşılıqlı asılılıq ........ 109

**Fəsil 4.** Fiskal siyasət ........ 143

**Fəsil 5.** Pul siyasəti ........ 223

**Fəsil 6.** Maliyyə sabitliyi ........ 301

**Fəsil 7.** Beynəlxalq maliyyə inteqrasiyası və xarici valyuta siyasəti ........ 381

**Fəsil 8.** Vergi siyasəti ........ 467

**Fəsil 9.** Artım siyasətləri ........ 529

İndeks ........ 595

# ÖN SÖZ

Həmişə belə bir kitab yazmaq istəmişəm. Həqiqətən, bu, uzun müddətdir yazmaq istədiyim kitabdır. Özümü günahkar hiss etdiyim üçün bunu etmək istədim. Uzun müddət idi ki, Stan Fişerlə yazdığımız və məzunlar üçün nəzərdə tutulmuş dərsliyin düzgün mesaj göndərmədiyini hiss edirdim. Həmin kitabda daha çox modellərə və onların məntiqi açıqlamasına fokuslanaraq praktiki hissəyə daha az yer ayırmağı qərara almışdıq. Əvvəlcə makroiqtisadi nəzəriyyənin intellektual quruluşunu göstərmək istəmişdik, yəni əsaslandırma yüksək səviyyədə idi. Lakin faktiki olaraq ciddi empirikanın olmaması lazım olan mesajı vermədi: nəzəriyyə ilə praktika və faktlar arasında ciddi ölçüdə boşluq var idi. Verilən mesaj düzgün deyildi: faktlar olmadan nəzəriyyə həddən artıq sadə olur və az istifadə edilir. Mən də nəzəriyyə, faktlar və siyasət arasında əlaqə yaradaraq həyəcanımı tələbələrlə bölüşmək istəyi ilə belə bir kitab yazmaq istədim. Bu, ABŞ-də universitet dərslikləri üçün ənənəvi haldır. Bu dərsliklər iqtisadi siyasət mübahisələri – siyasət seçimlərinin iqtisadiyyata təsiri barədə müzakirələrlə doludur. Bunu həm nəzəri, həm də ekonometrik vasitələrə malik aspirantlarla etməyin daha maraqlı olacağını düşünürdüm.

Aqnes Benassi-Küer, Benua Köre, Pyer Jake və Jan Pizani-Ferri məni bu kitabı yazmağa vadar etdilər. Buna görə çox xoşbəxtəm, çünki özüm də ümid etdiyimdən daha yaxşı bir iş ərsəyə gəldi.

Nailiyyətləri barədə ümumi təsəvvür yaranması üçün Avropa İttifaqının "Sabitlik və artım paktı" (SAP/SGP) kimi fiskal çərçivələrin yaranmasını və islahatını misal çəkmək olar. Bir araya gətirməli olduğunuz bütün elementləri təsəvvür edin:

- Nəzəriyyə və praktikada davamlılığın nə demək olduğunu, davamlılığa riayət etməməyin mənfi nəticələrinin nə olduğunu və davamlılığı necə qiymətləndirəcəyinizi anlamalısınız. Borcun ümumi daxili məhsula nisbəti nə zaman həddən artıq olur? Bəs onda nə baş verir? Bu göstəriciyə nə qədər sürətlə çatmaq olar? Bu göstəricidən necə uzaqlaşmaq olar?
- Defisitlərin və borcun məhsul buraxılışına və onun tərkibinə uzunmüddətli təsirlərini başa düşməlisiniz. Defisitlər və borc orta və uzunmüddətli dövrdə məhsul buraxılışına necə təsir edir? Faiz dərəcəsinə, xalis xarici borc vəziyyətinə, kapital ehtiyatına necə təsir edirlər? Gələcəkdə itirilmiş istehlak baxımından dəyəri nə qədərdir? Hansı nəsillər qazanır, hansı nəsillər itirir?
- Kəsirlərin qısamüddətli təsirlərini və kontr-tsiklik fiskal siyasətin qısa müddətdə necə kömək edə biləcəyini başa düşməlisiniz. Vergi endirimlərindən və ya xərclərin artırılmasından qaynaqlanan kəsirlər fəaliyyətə eyni şəkildə təsir edirmi? Gözlənti təsiri nə qədər vacibdir? Gələcəkdə böyük defisitlərin gözlənilməsi istehlakın və investisiyaların azalmasına və bu gün istehsalın azalmasına səbəb ola bilərmi? Bunun başvermə ehtimalı nə vaxt daha yüksək olur?
- Siyasət çevikliyinin azaldılmasının makroiqtisadi səviyyədə maliyyətinin nələr ola biləcəyini başa düşməlisiniz. Defisit və borc məhdudiyyətləri maliyyə siyasətinin şoklara qarşı cavab tədbirləri

ilə uzlaşırmı? İlk 10 il ərzində avro sahəsində davamlı fikir ayrılıqlarını nə ilə izah etmək olar? Bu cür fikir ayrılıqlarının qarşısını almaq mümkün idimi? Daha sonra maliyyə siyasətinin ölkəyə xas olan şoklarla mübarizə aparmaq üçün doğru vasitə olub-olmadığını və müstəqil bir pul siyasətinin olmamasını nə dərəcədə əvəz edə biləcəyini araşdırmalısınız. Nəhayət, yeni "Böyük tənəzzül"lə mübarizə aparandan və banklarını xilas edəndən sonra hökumətlərə nə qədər "siyasət fəzası"nın qaldığını anlamalısınız.

- Praktikada qaydaları necə müəyyənləşdirəcəyinizi düşünməlisiniz. Borc necə müəyyənləşdirilməlidir? Sosial təminat və gələcək nəsillərə veriləcək digər vədlərdən irəli gələn gizli öhdəliklərə necə münasibət göstərilməlidir? Qaydalar defisit və borc baxımından müəyyən edilirsə, qarşıya qoyulan sual üçün iki anlayışın ən uyğun tərifləri hansılardır? Qaydalar özəlləşdirmə gəlirləri ilə necə məşğul olmalıdır? Qaydalar ümumi borc və ya xalis borc üçün tətbiq edilməlidirmi? Büdcə cari hesabla kapital hesabı arasında ayrılmalıdırmı? Defisit qaydaları yalnız hökumətin cari hesabına şamil edilməlidirmi? Qaydalar siyasətçilər tərəfindən tətbiq oluna bilər, yoxsa müstəqil komitələr yaratmağa ehtiyac var?
- Siyasi-iqtisadi məsələlər barədə düşünməlisiniz. İlk növbədə qaydalara niyə ehtiyac var – insanları hökumətdən qorumaq, yoxsa hökumətləri özlərindən qorumaq üçün? Müəyyən qaydalar toplusu hökumət tərəfindən necə idarə oluna və ya təhrif edilə bilər? Hökumətin səhv addımına qarşı sanksiyalar necə tətbiq ediləcək? Bu sanksiyalar əvvəlcədən etibarlı olacaqmı? G20 çərçivəsində olduğu kimi beynəlxalq koordinasiyanın müsbət cəhəti varmı, yoxsa hökumətin vəzifələrindən kənarlaşmadır?

Bu suallara cavab verə bilmək üçün bir çox konseptual vasitələrə ehtiyac var. Bunların arasında kəsişən nəsilləri əhatə edən dinamik ümumi tarazlıq modeli, gözləntiləri diqqətlə analiz edən qısamüddətli dalğalanma modeli, müxtəlif siyasi-iqtisadi modellər, spesifik qaydaların tərtibatı barədə düşünməyə kömək edəcək vasitəçi modellər var. Hər bir halda nəzəriyyənin də köməyi ilə hansı nəzəri arqumentin daha uyğun olduğu barədə fikir sahibi olmaq üçün dəlillərə baxmalısınız. Bunu etmək isə asan deyil. Kurslar, adətən, sizi nəzəri vasitələrlə təmin edəcək və kifayət qədər praktiki təlim keçmədən bu vasitələri təcrübəyə tətbiq etməyi sizin öhdənizə buraxacaq. Bu kitab isə elə deyil. Bu kitab sizi vasitələrdən istifadə etməyə təhrik edir, sizi lazımi vasitələrlə təmin edir və onların təcrübəyə tətbiq olunması yollarını öyrədir.

Sonuncusu, lakin ən əsası, bu kitab tələbələrə qlobal maliyyə böhranı və sonrakı "Böyük tənəzzül"ün yaratdığı vəziyyətin hərtərəfli bərpasını təklif edən ilk kitablardan biridir. Müəlliflər böhranın səbəblərini, böhranın üzə çıxardığı ənənəvi yanaşmaların məhdudiyyətlərini, nəzəriyyəyə olan həddən artıq inamı, böhranı daha yaxşı başa düşmək və bir daha təkrarlanmayacağına əmin olmaq üçün daha çox nəzəri işə ehtiyac olduğunu əks etdirəndə iqtisadçıların üzləşdiyi konseptual çətinlikləri ört-basdır etməyə çalışmırlar. Yəni onlar, sadə dillə desək, qurunun oduna yaşı da yandırmır və Pol Kruqmanın təklif etdiyi kimi iddia edirlər ki, iqtisadçılar həqiqətlə gözəlliyi səhv salırlar. Əksinə, onlar böhranı daha yaxşı başa düşmək üçün mövcud nəzəriyyələrin tarixi bir kontekstdə necə istifadə edilə, zənginləşdirilə və dəyişdirilə biləcəyini göstərirlər. Bu, irəliyə gedən yoldur.

Bir sözlə, bu kitab sizi yaxşı bir makroiqtisadçı – yaxşı bir iqtisadçı kimi yetişdirir. Doğru münasibəti aşılayır və sizə doğru metodologiyanı öyrədir: nəzəriyyəyə təhlükəsiz şəkildə istinad etmək, məlumatlara baxmaq üçün nəzəriyyədən istifadə etmək, sonra tutarlı bir forma meydana gələnə qədər ikisi arasında irəli və geri getmək. Kitabı oxuyarkən makroiqtisadiyyatla bağlı araşdırmalar aparanda yaranan həyəcanı yenidən hiss etdim. Ümid edirəm ki, bu həyəcanım sizə də keçər, kitabdan zövq alaraq oxumağınızı arzu edirəm.

*Olivye Blanşar, C. Fred Berqsten*
Beynəlxalq İqtisadiyyat İnstitutu

# GİRİŞ

Bu, iqtisadi siyasəti nəyin formalaşdırdığını və ya formalaşdırmalı olduğunu öyrənmək istəyənlər üçün bir kitabdır: tarixdən gələn mesajları əks etdirən əsas faktlar; bu faktları anlamağa və siyasi qərarların təsirini təhlil etməyə kömək edən nəzəriyyələr; siyasət seçimlərini əhatə edən ziddiyyətlər; bunları müəyyənləşdirməyə kömək edən qaydalar və qurumlar; nəhayət, təcrübənin, nəzəriyyələrin və qurumların qarşılıqlı əlaqə tərzi.

Bu kitabın fransız dilindəki ilk nəşri 2004-cü ildə olub. İngilis dilində olan bu kitab isə ikinci nəşrdir. Bu vaxt ərzində kitabın italyan və Çin dilində versiyaları da çap olundu və fransız dilində olan dördüncü nəşri (ingiliscə ilə paralel olaraq hazırlanıb) 2017-ci ilin sonlarında işıq üzü gördü. Hər bir nəşr əvvəlkindən gözlə görüləcək dərəcədə fərqlənir. Orijinal kitab tələbələrin nəzəri bilikləri ilə iqtisadi siyasət qurmaq bacarıqları arasındakı boşluğu aradan qaldırmaq üçün təşkil olunmuş seminarın nəticəsində meydana gəldi və tələbələrin çoxu bunu peşə olaraq qəbul etməyi planlaşdırdı. Bu yeni nəşr nəinki əvvəlkindən daha dərin, daha dəqiq və daha əhatəlidir, həm də son 15 ildə ortaya çıxan böyük iqtisadi siyasət çağırışlarına cavab olaraq hazırlanmış yeni analitik fikirləri və yeni praktik həll yollarını özündə birləşdirir.

Son 10 ildə dünyanı qlobal maliyyə böhranı və "Böyük tənəzzül" bürüdü, bu isə uzun müddətdir maliyyə dövriyyəsinin qüsursuz olduğunu güman edən iqtisadiyyat sahəsi tərəfindən maliyyənin yenidən kəşf edilməsinə səbəb oldu. Avropanın valyuta zonasında kəskin eniş baş verdi; inflyasiya, demək olar ki, yox oldu, yaddan çıxan deflyasiya qayğıları yenidən gündəmə gəldi; dövlət borcu artdı, inkişaf etməkdə olan ölkələrin problemi olan suveren defolt təhlükəsi inkişaf etmiş ölkələrə də çatdı; inkişaf etməkdə olan ölkələr inkişafının ən yüksək həddinə çatdı; gəlir bərabərsizliyi ilk növbədə siyasi mübahisələr və tədricən siyasət müzakirələrində ön plana çıxdı; əməyin təbiəti struktur olaraq dəyişdi. Yeni suallar yeni tədqiqatların aparılmasına gətirib çıxardı və nəzəriyyəyə və praktik təcrübəyə əsaslanan yeni cavablar doğurdu. Yeni nəşr bu böyük yeniliyi tamamilə nəzərə alır, oxucunu ən son müzakirə edilən, tərtib olunan və həyata keçirilən iqtisadi siyasət haqqında məlumatlandırır. Bütün fəsillər hərtərəfli nəzərdən keçirilib, bəziləri yenidən yazılıb. Maliyyə sabitliyinə dair yeni fəsil təqdim olunub. Fikrimizcə, ərsəyə gələn kitab əvvəlkilərdən, sözün əsl mənasında, fərqlənəcək.

# TƏDQİQATLA TƏCRÜBƏ ARASINDAKI QARŞILIQLI ƏLAQƏ

Bu kitab nəzəriyyə ilə praktikanın kəsişməsində dayanır. Onların arasındakı əlaqənin çox tez-tez kəsilməsi həm siyasət, həm də araşdırma baxımından mənfi haldır. Biz fərz edirik ki, təcrübə ilə nəzəriyyə arasında əlaqə qurmaq praktikanı işıqlandırır və daha sağlam nəzəriyyənin qurulmasına kömək edir.

Dördümüz də müəllimik; hər birimiz tədqiqat və siyasətlə bağlı tövsiyələri birləşdirmişik: istər dövlət səviyyəsində, istərsə də Avropa və ya beynəlxalq səviyyədə konsultantlar, mütəxəssislər, konsultasiya mərkəzlərinin üzvləri və ya sədrləri, yüksəkvəzifəli şəxslər, mərkəzi bankların rəhbərləri, tədqiqatçılar və şərhçilər olmuşuq. Müxtəlif yerlərdə iqtisadi siyasət qurmaq reallığı ilə qarşılaşdıq və bu, iqtisadi nəzəriyyəni başa düşmək, öyrətmək və ondan istifadə qaydalarını dəyişdirdi.

Təcrübədən öyrəndiyimiz qədəriylə deyə bilərik ki, tədqiqat öz daxili məntiqinin qurbanı ola və vacib, bəzən həyati iqtisadi fikirlərə məhəl qoymaya bilər. Keçmiş hadisələrdən dərs çıxarmamağın və nəzəri irəliləyişlərə laqeydliyin siyasəti təsirsiz, hətta zərərli bir şeyə çevirə biləcəyini də öyrəndik. Qlobal maliyyə böhranı siyasətlərin hazırlanmasına və iqtisadi nəzəriyyəyə uzunmüddətli təsir göstərəcək. Böhrandan əvvəl və böhran dövründəki bəzi mexanizmlər əvvəlki böhranlardan sonra müəyyənləşdirilib və araşdırılıb, bəziləri isə tamamilə yenilənib. İqtisadçılar maliyyə pozuntuları ilə mübarizə aparmaq, iqtisadiyyatı canlandırmaq və yeni böhranın qarşısının alınması sxemlərini hazırlamaq üçün birinci mərhələdə dərsliklərdə öz əksini tapmış bilikləri yenidən nəzərdən keçirdilər; keçmiş səhvləri təkrarlamamağa çalışdılar və sadəcə, nəzəri maraq sayılan modelləri bərpa etdilər. İkinci mərhələdə yeni bir araşdırma başladıldı. Bəziləri olduqca nəzəri idi və maliyyə kövrəkliyinin mənbələrini və yoluxucu kanallarını müəyyənləşdirmək və risklərin idarə edilməsinə yanaşmamızı yeniləmək məqsədi daşıyırdı; bəziləri empirik idi və iqtisadi siyasətin təsiri barədə anlayışımızı dərinləşdirmək və ya gəlir bərabərsizliyi, yaxud sistem riski kimi əvvəllər nəzərdən qaçırılan ölçüləri araşdırmaq məqsədi güdürdü. Bu kitabda bu tədqiqatı araşdırırıq və iqtisadi siyasətə verdiyi töhfəni xüsusən də fiskal siyasət, pul siyasəti və maliyyə sabitliyinə həsr olunmuş 4-6-cı fəsillərdə müzakirə edirik.

Böhran Avropada iqtisadi düşüncə ilə siyasət qurma arasındakı qarşılıqlı əlaqə tərzində mövcud olan spesifik çatışmazlıqları üzə çıxardı. Fövqəlmilli valyutanın yaradılması o zamanadək görünməmiş ambisiyanın (sınaq da deyilə bilər) həyata keçirilməsi demək idi. Qarşıya çıxan nöqsanların bir çoxu qismən də olsa, öncədən proqnozlaşdırıla bilərdi. Əsas problemlər valyuta sahəsindəki fərqlər, asimmetrik şoklara uyğun olmayan tənzimləmə mexanizmləri, özünü gücləndirən qiymət divergensiyası və fiskal məsuliyyətə dair zəif təşviqatlar idi. Həmin məsələlər başlanğıcdan bəri akademiklər tərəfindən müəyyən olunmuşdu və tarixi təcrübəyə əsaslanaraq onların əhəmiyyəti barədə nəticə çıxarmaq olardı. Bank risklərinin ümumiləşdirilməməsi və ya hökumətlər üçün son instansiya kreditoru çatışmazlıqları ilə əlaqəli digər problemlər bəziləri tərəfindən müəyyən edilsə də, tam diaqnoz qoyulmamışdı. Tədqiqatçılar və siyasət qurucuları arasında daha ciddi və həqiqi dialoq avrozona böhranını proqnozlaşdırmağa və qarşısını almağa kömək edə bilərdi. Lakin təəssüflər olsun ki, siyasət qurucuları avronun ortaya çıxarılmasından sonra siyasətdə yaranan rahatlıq nəticəsində onlarda uzun müddət sual doğuran məsələlərlə deyil, daha çox seçimlərini əsaslandıran təhlillərlə maraqlanmağa başladılar. Həqiqi dialoq yalnız "avronun ölüm təhlükəsi" altında olduğu üzə çıxdığı zaman gücləndi.

# İQTİSADÇILARIN MƏSULİYYƏTİ

Nəzəriyyə və siyasət nə qədər çox qarşılıqlı əlaqədə olsa, iqtisadçıların məsuliyyəti də bir o qədər artır. Bu onların dürüstlüyü, intellektual açıqlığı və mübahisə etmək qabiliyyəti ilə bağlı bir neçə məsələni gündəmə gətirir.

Etiraf edək ki, böhran iqtisadçı peşəsinə şübhə yaratdı. İqtisadçılar diqqətsiz və özlərinə əmin olmaqda, hətta nəzarəti əldən buraxmaqda günahlandırıldılar. Onlara qarşı intellektual konformizm, bazar mexanizmlərinə həddən artıq etibar etmək, maliyyə dünyasına çox yaxın olmaq və güclülərlə zəif olmaq kimi ittihamlar irəli sürüldü. Onlar avrozona böhranından sonra monetar inteqrasiyanın xərcləri və faydaları barədə qərəzli nəticələr çıxarmaqda (yəni birincini qiymətləndirməməkdə, ikincini yüksək qiymətləndirməkdə) günahlandırıldılar. İqtisadçılara özlərinin maddi cəhətdən yalnız sosial qarşılıqlı əlaqələrə maraq göstərmələrinə, əsas diqqəti daha çox var-dövlətin bölüşdürülməsinə deyil, toplanmasına yönəltmələrinə və iqtisadi müəssisələr formalaşdıran inkişaf və siyasi qüvvələrin vurduğu ziyanı görməzliyə vurmalarına gətirib çıxaran kəskin miopiya diaqnozu qoyuldu. Və onlar bəzən, Pol Kruqman tərəfindən açıq şəkildə ifadə edildiyi kimi, mürəkkəb reallığı dərk etmək hesabına əsas diqqəti xüsusi, "zərif" modellərə ayırmaqda – gözəlliklə həqiqəti səhv salmaqda günahlandırılırdılar.

Dürüstlük məsələsinə gəldikdə ədalətli şəkildə etiraf etmək lazımdır ki, peşəkar iqtisadçılar stimulların əhəmiyyəti barədə başqalarına mühazirə oxusalar da, şəxsi mənafelərinə xidmət edən konfliktlərə artıq uzun müddət idi göz yumurdular. İqtisadçılar nəzərə alınması vacib olan maddi aspektlə yanaşı, bunu da bilməlidirlər ki, siyasətçilər və hökumət texnokratları da daxil olmaqla hər hansı bir peşə sahəsi ilə həddən artıq sıx əlaqədə olmaq onların tənqidi bacarıqlarını risk altına alır. Böhrandan sonra iqtisadçıların peşə etikasına qarşı şübhə yarandı və bu, məsələn, hər hansı peşə sahəsinə aid jurnallarda daha da çox məlumatın açıqlanmasına səbəb oldu. Maraqların potensial toqquşması zamanı tam şəffaflıq təmin edilməlidir.

İntellektual cəhətdən diqqətsiz olmaqla bağlı tənqidlərə gəlincə, bu, əksər hallarda əvvəlcədən müəyyənləşdirilmiş qərəzli səhv rəylərə əsaslanır. İqtisadi nəzəriyyə bəzilərinin liberal dairələrdə olduğuna inandığı azad bazarın "Troya atı" modeli, kiçik hökumət və ya minimal yenidən bölgü ilə bağlı yanaşma deyil. İqtisadiyyat sahəsində "Nobel memorial mükafatı"na son zamanlarda layiq görülən bir neçə iqtisadçı öz tədqiqatlarını bərabərsizliklərə, yoxsulluğa, hökumət müdaxiləsinə və ya iqtisadi agentlərin məhdud rasionallığına həsr etmişdi. İqtisadçılar bazarı resursların bölüşdürülməsi üçün səmərəli bir vasitə kimi qiymətləndirirlər, lakin eyni dərəcədə onun uğursuzluqları və qeyri-bərabər paylanmanın yaratdığı təsirlər iqtisadçılarda narahatlıq doğurur, buna görə də həmin nöqsanları müəyyənləşdirmək və aradan qaldırmaq üçün müəyyən vasitələr hazırlanıb.

İctimai mübahisələrdə iştirak edənlər iqtisadi təhlildən daha yaxşı (və daha məlumatlı) istifadə etsələr, demokratiya üçün daha faydalı olar. İqtisadçılar ideoloq deyil: onlar vaxtlarının çox hissəsini sürətlə genişlənən məlumat bazasından istifadə edərək empirik tədqiqatlara və təcrübələrə ayırırlar. Əvvəlki bir neçə onillikdən fərqli olaraq, hal-hazırda ən yaxşı iqtisadi jurnallarda dərc olunan tədqiqatların böyük hissəsi empirik xarakter daşıyır; nəzəriyyə siyasətin uğurla nəticələnməsini təmin edən əsas parametrləri müəyyənləşdirmək və empirik təhlili təbii statistik qanunauyğunluqlar xaricində istiqamətləndirmək üçün vacibdir.

Bəzi iqtisadçılar özlərini alim və ya mühəndis kimi deyil, daha çox bazar səmərəliliyinin, iqtisadi açıqlığın, qiymət sabitliyinin və ya (de) inkişafın tərəfdarı kimi görə bilərlər. Vətəndaş cəmiyyətinin nümayəndələri və ya digər sahələr üzrə ekspertlər, bəzi tədbirli və təmkinli tədqiqatçılar siyasətçilərlə mübahisəyə girdikləri zaman fikirlərini həddən artıq sadələşdirməyə və sosial rollarını daha qabarıq şəkildə göstərməyə meyilli ola bilərlər. Siyasət qurucuları yalnız əsas üstünlük verdikləri məqamları təsdiqləyən işlərə həddən artıq önəm verərək, əksər hallarda tədqiqat nəticələrindən qərəzli şəkildə istifadə edirlər. 2000-ci illərin ortalarında maliyyə və ya avro tədqiqatçıları əksər hallarda "panqlossian" (hər şeyə həddən artıq pozitiv yanaşma) baxış tərzində düşünürdülər, daha ehtiyatlı olmağa çalışan tədqiqatçılar isə geniş şəkildə arxa plana keçirilirdi. Etiraf etmək lazımdır ki, belə hallarda bunun səbəbi tədqiqatla siyasət arasındakı əlaqə deyil, daha az araşdırmanın aparılması idi və bunun da günahkarı iqtisadçılar idi. Bu halda metodoloji təkəbbür əsassızdır. Miopiya və fərdlərin açıq-aşkar irrasionallığına gəldikdə isə iqtisadçılar bir çox hallarda qeyri-maddi qarşılıqlı əlaqələri, təşəbbüs və kollektiv fəaliyyəti dərk etməyə çalışan Elinor Ostromun və ya Riçard Talerin (hər ikisi Nobel mükafatı laureatıdır) fikirlərinə əsaslanırlar.

Onlar faydalılıq, zamanlararası maksimallaşdırma və ya sosial rifah kimi anlayışların inkişafa olan inamın əksinə olaraq, ictimai fəaliyyətə dair çoxşaxəli bir yanaşma yaratmaq üçün bütün mühüm vasitələri təmin etdiyini vurğulayırlar. Bütün bunlar həqiqətdir, lakin asanlıqla yanlış istiqamətə apara bilər. İqtisadçılar digər sosial elmlərin kəşflərinə qarşı açıq olmalıdırlar. Onların elminin gücü Corc Stiqlerin bir zamanlar "xüsusi elm" kimi qeyd etdiyi hər hansı bir daxili üstünlükdən deyil, onların sahib olduğu peşə sayəsində inkişaf etdirə biləcəkləri analitik dəqiqlik və empirik əlaqələrin birləşməsindən qaynaqlanır. Onlar diş həkimlərinin təvazökarlığı və səriştəsindən nümunə götürmək üçün Keynsin dəvətini nəzərə almalıdırlar.

## NADİR STRUKTUR

İqtisadi dərsliklər bütövlükdə makroiqtisadiyyat, mikroiqtisadiyyat, maliyyə, beynəlxalq ticarət və s. sahələr olmaqla müəyyən sahədəki iqtisadi nəzəriyyəni əhatə edir və nəzəri nəticələri göstərmək üçün real həyatda baş verən hadisələrdən yararlanır. İqtisadi siyasət vasitələrinin və qərar qəbuletmə prosesinin təsviri çox vaxt elementar və mücərrəd olaraq qalır: qərar qəbul edən şəxs faiz dərəcəsini və ya dövlət xərclərinin səviyyəsini məhdudlaşdırma olmadan seçməlidir, halbuki real həyatda bu cür qərarlar mürəkkəb prosesləri əhatə edir.

Əksinə, iqtisadi siyasətlə bağlı bir çox mükəmməl məqalələr yeni ideya və qurumların nəzəri əsaslarını müzakirə etməklə deyil, onların meydana gəlib, sonra yox olmasını təsvir etməklə daha çox məşğuldur. Həmin məqalələr məlumatlandırıcı, lakin məyusedici xarakterə malikdir. Kitabımız bu boşluğu doldurmaq məqsədi daşıyır. Biz əsas analitik vasitələri – nəzəri və empirik alətləri və ya həqiqi siyasi məsələlərin həlli ilə əlaqəli olan köhnə və yeni alətləri təqdim edirik; siyasət kompromislərini müəyyənləşdirmək və siyasətçilərin seçimlərinə rəhbərlik etmək üçün bu alətlərdən necə istifadə oluna biləcəyini izah edirik; siyasi məsləhətlər tərtib edərkən təvazökar və tədbirli olmağı əsaslandıran və iqtisadçıların işini bu qədər çətin və faydalı edən nəzəri qeyri-müəyyənlikləri, aydın olmayan və mübahisəli məqamları müzakirə edirik. Ümid edirik ki, bu kitab növbəti illərdə qarşıya çıxacaq mübahisələri anlamaq və həmin mübahisələrdə iştirak etmək üçün oxucuları lazımi vasitələrlə təmin edəcək.

Kitab doqquz fəsildən ibarətdir. İlk üç fəsil iqtisadi siyasət qurmaqla bağlı əsas ümumi anlayışları əhatə edir. 1-ci fəsil kitabın qalan hissəsində istifadə ediləcək metodoloji əsasları və iqtisadi metodlarla bağlı əsas anlayışları təsvir edir. 2-ci fəsildə hökumət müdaxiləsinin məhdudiyyətləri və onu ən optimal şəkildə göstərə biləcək siyasi-iqtisadi səbəblər nəzərdən keçirilir. 3-cü fəsil suveren ölkələr daxilində və həmin ölkələr arasında olan siyasət quruculuğu ilə bağlı müxtəlifliyi təsvir edir. 4-9-cu fəsillər iqtisadi siyasətin altı sahəsini əhatə edir: fiskal siyasət (4-cü fəsil), pul siyasəti (5-ci fəsil), maliyyə sabitliyi (6-cı fəsil), beynəlxalq maliyyə inteqrasiyası və xarici valyuta siyasəti (7-ci fəsil), vergi siyasəti (8-ci fəsil) və artım siyasətləri (9-cu fəsil). 6-cı fəsil tamamilə yenidir və bu hissədə təşəkkür etmək istədiyimiz Lourens Bun, Lorenso Kapyello, Enn Le Lorye və Peter Pretin şərhlərindən faydalanmışıq. Altı fəslin hər biri oxşar şəkildə tərtib olunub: birinci hissə yaxın iqtisadi tarixdən əldə edilmiş müvafiq faktları əks etdirir, ikinci hissədə siyasət qurucularının istifadə etməli olduqları (və ya ən azından haqqında müəyyən məlumata sahib olduqları) nəzəri modellər, üçüncü hissədə isə əsas siyasi variantlar təqdim olunur. Altı fəsil arasında bir çox çarpaz istinadlar olsa da, onların hər biri ayrı-ayrılıqda oxunacaq şəkildə yazılıb.

Kitab tam şəkildə əhatəli deyil. Biz əsas diqqəti ardıcıl olaraq pul, büdcə, maliyyə, məzənnə, vergiqoyma və inkişafla bağlı məsələlərə yönəldərək, makroiqtisadiyyatı geniş mənada əhatə edirik. İqtisadi siyasətin rəqabət siyasəti, sosial müdafiə, əmək siyasəti, beynəlxalq ticarət və ya iqlim dəyişikliyi kimi bir sıra başqa vacib sahələrinə toxunmamağı və ya həmin məsələləri məhdud şəkildə müzakirə etməyi nəzərdə tutmuşuq. Həmçinin beynəlxalq iqtisadi siyasət, regional (və xüsusən də Avropa) inteqrasiya və ya yerli hökumətlərin idarə edilməsi ilə bağlı xüsusi fəsillər yazmağı düşünmürük. 3-cü fəsil hökumətin müxtəlif səviyyələri üçün siyasi alətlərin təyin edilməsi və qlobal idarəetmənin çətinlikləri barədə iqtisadi nəzəriyyədə bəhs olunanları ümumiləşdirir; bununla belə, siyasətin bəzi sahələri qlobal, bəziləri regional, bəziləri milli, bəziləri isə yerli xarakter daşıyır; buna görə də biz altı tematik fəslin hər birində əlaqəli şəkildə həmin mövzulara toxunmuşuq.

İqtisadçıları əksər hallarda özlərini çətin suallardan qorumaq üçün texniki lüğətə müraciət etməkdə günahlandırırlar. Oxucunun semantik maneələri aşmasına kömək etmək üçün kitabda ən azı bir dəfə bütün əsas anlayışları müəyyənləşdirməyə və bu terminləri kursivlə işarələməyə diqqət yetirmişik. Kitabın sonundakı “İndeks” bölməsində açar sözlərin və onların istifadə olunduğu müvafiq səhifələrin tam siyahısı təqdim olunub.

Bununla yanaşı, əsas riyazi məsələləri texniki haşiyələrdə qeyd etmişik. Biz riyaziyyatı nə iqtisadi biliklərin məqsədi, nə də həqiqət və ideologiya arasında bir xətt çəkməyimizə imkan verən vasitə kimi görürük. Pol Romerin də bir dəfə qeyd etdiyi kimi, riyaziyyatdan ideologiyanın dəstəklənməsi üçün istifadə edilə bilər və əksinə, bu kitabda bəhs olunan bəzi əsas nəzəri məqalələrdə heç bir bərabərlik göstərilmir. Buna baxmayaraq, riyaziyyat fərziyyələr toplusunun bir araya gətirilməsində və dəqiq şəkildə tərtib olunmasında əvəzsiz bir vasitədir. O həmçinin fərziyyələri həqiqi məlumatlarla qarşılaşdırmağa imkan verən statistik vasitələrin əsasını təşkil edir. Bununla belə, riyaziyyat bir dil olaraq ciddi mühakimələrin izahını vermək və nəticələrini təqdim etmək üçün yox, onları ortaya çıxarmaq üçün daha uyğundur. Biz bunun necə istifadə ediləcəyinə dair nümunələr vermişik, eyni zamanda mühakimələri daha münasib üsullarla izah etmişik.

Oxucuya kömək məqsədilə hər fəsildə bir çox qrafik və cədvəllər yerləşdirilib, çünki yanaşmamız əsas etibarilə faktlara əsaslanır. Bura nəzəri və təsviri haşiyələr də daxildir. Bundan əlavə, oxucunun əhatə olunan hər hansı məsələni daha da dərindən araşdırması üçün geniş biblioqrafik istinadlar mövcuddur.

# NƏTİCƏ

Bizi ilhamlandıran və bütün bu birgə cəhdlərin reallığa çevrilməsinə töhfə verən hər kəsə öz təşəkkürümüzü bildiririk. Sualları və tənqidləri ilə kitabın aktuallığını, dəqiqliyini və oxunaqlılığını əhəmiyyətli şəkildə yaxşılaşdıran tələbələrimizə çox borcluyuq. Əvvəlki versiyalara rəy bildirən həmkarlarımıza və dostlarımıza da təşəkkür edirik. İqtisadi siyasət haqqında yazmaq məlumatları və faktları dayanmadan yeniləməyimizi tələb edir. Bu son nəşrdə xüsusilə Pol Berenberq-Qossler, Pranav Qarq və Ameli Şurix-Reyin səmərəli dəstəyindən faydalanmışıq. Onlar olmasaydı, bu kitab bugünkü mübahisələrə cavab verə bilməzdi.

*Paris, Florensiya, Frankfurt, Nyu-Dehli*
Mart 2018